Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Tarixi romanlar müəllifi Fərman Kərimzadə

**Fərman Kərimzadənin 85 illik yubileyi münasibəti ilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı-2022**

**Tərtibçi:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
Əməkdar Mədəniyyət işçisi

**Tarixi romanlar müəllifi:** Yazıçı Fərman Kərimzadənin 85 illik yubileyi münasibəti ilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / tərt.ed.R.Məmmədli; ix. red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2022.-33s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2022**

## Giriş

Müasir Azərbaycan ədəbiyyatında özünün dəsti-xətti ilə seçilən görkəmli nasirlərdən biri də Fərman Kərimzadə olmuşdur. Sənətkar Böyük Vətən müharibəsinin kədərli təəssüratı ilə böyümüş, bu təəssüratın doğurduğu düşüncələrlə ədəbiyyata gəlmişdir. Bu gün milli dəyərlərimizə tapınan hər bir azərbaycanlının qəlbində əbədiyaşar bir Fərman Kərimzadə obrazı var. Çağdaşımız olan böyük yazıçı təsəvvürümüzdə həmişə Dədə Qorqud misalında canlanıb, min illərin kişisi kimi yad edilib. İmadəddin Nəsiminin "Dünya duracaq yer deyil, ey can, səfər eylə" qənaəti elə bil ki, Fərman Kərimzadənin yaşam tərzinə çevrilmişdi. F.Kərimzadə vətənimizlə bağlı unudulmaz xatirələrini özüylə yaşatdı. Şeirə çevirdi, povestə, romana köçürdü, bitmədi, tükənmədi bu həsrət. Onun hekayələri, povestləri, publisist əsərləri, yaratdığı bədii irsi zəngin xəzinədir. Tarixilik, xəlqilik, elmilik pedoqoji – metodik prinsiplər əsasında yazdığı "Qarlı aşırım", "Xudafərin körpüsü", "Çaldıran döyüşü", "Təbriz namusu" və "Qoca qartalın ölümü" romanları parlaq sənət inciləri, həyatın və tarixi qaynaqların əbədiyaşar, bədii-esetik və bədii tarixi salnaməsidir.

Fərman Kərimzadə Azərbaycan ədəbiyyatı tarixində parlaq uğurlar qazanmış, zəngin bədii irs yaratmış, ölməz sənət inciləri yaratmış söz ustası idi. Fərman Kərimzadə sənətkar kimi də, şəxsiyyət kimi də vaxtdan ucada dayanmağı bacarırdı. Yazıçı yaradıcılığı boyu əsl ədəbiyyat nümunələri yaratmışdı.

Bu il dəyərli yazıçımızın 85 yaşı tamam olur. Bu münasibətlə məktəblərdə, kitabxanalarda, bir sıra mədəniyyət ocaqlarında yazıçıdan bəhs edən yubiley tədbirlərinin keçirilməsi nəzərdə tutulmuşdur. F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Elmi-metodika şöbəsi olaraq bu vəsaiti hazırlamağı özümüzə borc bildik. **"Tarixi romanlar müəllifi Fərman Kərimzadə"** adlanan metodik vəsait "Giriş" və "Keçiriləcək tədbirlər" hissəsindən ibarətdir. Giriş hissədə F.Kərimzadənin həyat və yaradıcılığından söhbət açılır. II hissədə isə kitabxanada yazıçının yubileyi ilə bağlı keçiriləcək tədbirlərdən nümunələr verilmişdir.

## *Xalqa aşırımın o üzündəki həqiqəti göstərən sənətkar*

Fərman Kərimzadə 1937-ci il martın 3-də Ermənistanın Vedi rayonunun Böyük Vedi kəndində anadan olmuşdur. İbtidai təhsilini orada almış (1944-1951), orta məktəbi isə Beyləqan rayonunun Şahsevən kəndində bitirmiş (1954), Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində təhsil almışdır (1955-1960). 3 il İsmayıllı və Beyləqan rayonlarında orta məktəb müəllimi kimi fəaliyyət göstərmiş (1962-1965), sonra "Yüksəliş" rayon qəzeti redaksiyasında ədəbi işçi, şöbə müdiri, məsul katib olmuşdur (1962-1965). F.Kərimzadə Moskvada Ümumittifaq Kinematoqrafiya İnstitutunun ssenari fakültəsinin ikinci kursunu bitirmiş (1965-1967), Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində tərcüməçi, böyük redaktor, "Abşeron", "Ədəbiyyat və incəsənət" qəzetlərinin redaksiyasında şöbə müdiri, ədəbi işçi (1966-1970), C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında kollegiya üzvü (1970-1977), "Ədəbiyyat və incəsənət" qəzetinin xüsusi müxbiri (1977-1980) olmuş, Şüvəlan yaradıcılıq evinin direktoru (1980-1981) işləmişdir. Fərman Kərimzadə 1989-cu il mart ayının 17-də vəfat etmişdir. Yaradıcılığına gənc yaşlarından başlayan F.Kərimzadə ilk hekayələri ilə diqqəti cəlb etmişdir. Fərman Kərimzadə 1960-cı illərdə yenilik ruhu ilə axtarışlar aparan gənc yazıçılardan biri idi. Xüsusən xalqımızın yaxın və uzaq tarixi, onun başına gətirilən müsibətlər Fərman müəllimin sənət dünyasında mühüm yer tuturdu. 1948-ci ildə başlanan deportasiyada Fərman Kərimzadənin nəsli, el-obası sürgünlərə, səs-küysüz soyqırımlara düçar olmuşdu. Zaman keçib getsə də, doğma Vedi yazıçının yaddaşında silinməz izlər qoymuşdu. 1988-1989-cu illərdə ana yurdunun acı günləri yazıçını sarsıtdı. Bütünlükdə Azərbaycan türklərinin deportasiya olunduğu

il, bəlkə də, həyatının ən ağır ili idi. Fərman Kərimzadə sözün əsl mənasında bir vətənpərvər idi. Ona görə də yazıçının tarixi mövzulara müraciəti olduqca təbii idi. F.Kərimzadənin tarixi romanları çağdaş Azərbaycan nəsrində janrın potensial imkanlarının genişliyini sübut edirdi. Onu bir yazıçı kimi şöhrətləndirən də onun tarixi romanları olmuşdur. Bu baxımdan "Qarlı aşırım" romanı F.Kərimzadənin bütün sonrakı tarixi romanlarının özünəməxsusluğunu, digər müəlliflərlə müqayisədə tarixə və tarixi şəxsiyyətlərə münasibətini aydınlaşdırmağa kömək edir. F.Kərimzadəni sinfi toqquşmaların təsvirindən daha çox, bu toqquşmaya qoşulanların ürək dünyası və mənəvi ovqatı, onların hərəkətlərini şərtləndirən daxili impulslar maraqlandırırdı. O, cavab axtarırdı ki, axı niyə fərdin ictimai-sinfi statusu, sosial mövqeyi və rolu onun əməl və hərəkəti ilə heç də həmişə düz gəlmir, üst-üstə düşmür, insan heç özü də gözləmədən bu statusu kökündən zidd addımı atmağa, sinfi mahiyyətə əks hərəkət xəttini həyata keçirməyə hazır olur?

## Yubiley tədbirləri

Bu il Azərbaycan ədəbiyyatının öndər yazıçılarından biri olan yazıçı-nasir, kinoredaktor, bir çox filmlərin ssenari müəllifi Fərman Kərimzadənin anadan olmasının 85 ili tamam olur. Bu münasibətlə respublikanın bütün mədəniyyət müəssisələrində, eyni zamanda kitabxanalarda yubiley tədbirlərinin keçirilməsi nəzərdə tutulmuşdur. Bu tədbirlər arasında sərgilər mühüm yer tutur. Sərgidə yazıçının kitabları, müxtəlif mətbuat səhifələrində onun haqqında nəşr olunmuş məqalələr, onun fotoları nümayiş olunur. Sərgi təşkili zamanı görkəmli şəxsiyyətlərin yazıçı haqqında söylədiyi kəlamlardan da istifadə etmək olar.


Fərman Kərimzadə
XUDAFƏRİN KÖRPÜSÜ


FƏRMAN
KƏRİMZADƏ
tarixi roman
QARLI
AŞIRIM


FƏRMAN
KƏRİMZADƏ
tarixi roman
ÇALDIRAN
DÖYÜŞÜ


YAVUZ AXUNDLU
MƏNİM
ƏDƏBİ
DÜNYAM


TALVAR


FƏRMAN
KƏRİMZADƏ
tarixi roman
XUDAFƏRİN
KÖRPÜSÜ
www.AZpress.AZ


SEÇİLMİŞ
ƏSƏRLƏRİ
V cild


FƏRMAN KƏRİMZADƏ
SEÇİLMİŞ
ƏSƏRLƏRİ
IV cild
TƏBRİZ NAMUSU.
VEDİNİN YANI
DAĞLAR...


SEÇİLMİŞ
ƏSƏRLƏRİ
II cild

**Görkəmli şəxsiyyətlərin Fərman Kərimzadə haqqında söylədikləri:**

Fərman Kərimzadə son dərəcə sadə, təmiz, geniş ürəkli, böyük naturalı bir adam idi. O, azərbaycanlı xarakterinin mahir yaradıcısı, əsl vətəndaş kimi Azərbaycan namusunun bir parçası idi.

***Sabir Rüstəmxanlı,***
*Azərbaycanın xalq şairi*

Fərman Kərimzadə hadisələrin məntiqini tutmağı, obrazların mənəvi-psixoloji aləmini aydın cizgilərlə əks etdirməyi bacaran sənətkardır.  O, sənətkar kimi də, şəxsiyyət kimi də vaxtdan ucada dayanmağı bacardı.

***QəzənfərPaşayev,***
*Professor*

Fərman Kərimzadənin tarixi romanları çağdaş Azərbaycan nəsrində janrın potensial imkanlarının genişliyini sübut edirdi. Onu bir yazıçı kimi şöhrətləndirən də onun tarixi romanları olmuşdur.

***Yavuz Axundlu,***
*Filogiya elmləri doktoru*

Fərman Kərimzadənin "Qarlı aşırım"ı ölüm, qorxaqlıq və onların hər ikisindən ucada duran insan və onun ləyaqəti barədə ibrətli hekayədir. Konkret inqilabi –tarixi motiv burada məhz ümumbəşəri əxlaq və mənəviyyat problemi səviyyəsinə qalxa bilir.

***Yaşar Qarayev,***
*Professor*

Bütün ağlı, insanlığı, mənəvi gözəlliyi ilə Allah Fərmanı xoşbəxt yaratmışdı. Fərman Kərimzadə həyatı ədəbiyyata gətirdiyindən yaradıcılığında obrazlar qalereyası da olduqca real və zəngindir. Fərman Kərimzadənin ictimai-siyasi və pedoqoji fəaliyyəti ilə ədəbi yaradıcılığı bir-birini tamamlayırdı.

***İlyas Tapdıq,***
*Şair*

Fərman rəssam təfəkkürü, şair zərifliyi ilə nəsrimizə bir şirinlik gətirdi. 1967-ci ildə çap olunmuş "Qarlı aşırım" onun yazıçı istedadını, ümidverici və gələcəkli bir nasir kimi yetişdiyini üzə çıxardı.

***Musa Yaqub,***
*Şair*

Fərman Kərimzadənin hər əsəri bir insan dünyasıdır. Onun əsərləri kino sənəti üçün zəngin material verir. Fərman Kərimzadə ölümsüzlüyün zirvəsinə ucalan və milyonların qəlbində əbədi yaşayan sənətkardır.

***Telman Mehdixanlı,***
*Jurnalist*

Fərman Kərimzadənin yazdığı əsərlər, yaratdığı obrazlar öz milli koloriti, milli özünəməxsusluğu, milli düşüncə tərzi ilə secilirdi. O, yazdığı əsəri, təsvir etdiyi obrazı yaşayırdı.

***Yeganə Kərimzadə,***
*Yazıçı (qızı)*

Fərman Kərimzadənin azərbaycançılıq ideologiyasının bətnindən doğulmuş insan idi. Onun yaradıcılığı, düşüncəsi, atdığı hər bir addım bütöv Azərbaycan savaşına hesablanmışdı. Fərman Kərimzadə ölməz əsərləriylə, böyük vətəndaşlıq qüruruyla özünə əbədi heykəl qoyub getdi.

***Sərvaz Hüseynoğlu,***
*Yazıçı, şair*

Qırmızı ilğımın puç və əfsanə olduğunu yazıçı fəhmi ilə çoxlarından əvvəl Fərman Kərimzadə duymuşdu. Yazıçı "Qarlı aşırım" romanı ilə aldanmış insan selini dayandırıb bəylikdən köləliyə sürüklənən bir xalqa aşırımın o üzündəki həqiqəti göstərirdi…

***Təranə Vahid,***
Yazıçı

Tanınmış roman və hekayə ustası kimi tanınan Fərman Kərimzadənin bir neçə kitabı işıq üzü görmüşdür. Həmin kitabların icmalının keçirilməsi də oxucularda maraq doğurar. Kitabxanada Fərman Kərimzadənin kitablarının sərgisi təşkil olunur. Kitabxanaçı oxuculara kitab icmalının nə vaxt keçiriləcəyi haqda məlumat verir. Təyin olunmuş gündə Fərman Kərimzadənin qələmə aldığı kitabların icmalı keçirilir. Əvvəlcə yazıçının həyat və yaradıcılığı haqqında oxuculara məlumat verilir.

**Kitabxanaçı:** Ədəbiyyatımızın tarixi roman janrının ən qüdrətli yaradıcılarından biri, hekayə ustası, dramaturq, publisist, ictimai xadim və yüksək ziyalı anlayışını ömrü boyu şərəflə daşıyan Fərman Kərimzadə zəngin və mürəkkəb bir həyat yolu keçmiş, gördüklərini, yaşadıqlarını, düşündüklərini parlaq bədii boyalarla

əks etdirmiş və mədəniyyətimiz tarixində qiymətli bir irs qoyub getmişdir.

Fərman Kərimzadənin 1958-ci ildə qələmə aldığı ***"41 nömrəli ayaqqabı"*** hekayəsi ilk təcrübə olsa da, müharibənin fəlakət dolu nəticələrini təsirli bir dil ilə oxucuya çatdırır.

***"Son eksponat", "Toy toğlusu"*** hekayələri də müharibə mövzusundadır, müharibənin ağrı-acılarından bəhs edir.

***"Son eksponat"*da** ana qəhrəmanlıqla həlak olmuş oğlunun muzeydəki köynəyini - öz əli ilə toxuduğu köynəyi qorumağa çalışır, oğlunun sinəsini dəlib-deşən güllə yerini muzeydəki baxımsızlıqla, köynəyə güvə düşməsi ilə əlaqələndirir. F.Kərimzadə hadisələrin məntiqini tutmağı, obrazların mənəvi-psixoloji aləmini aydın cizgilərlə əks etdirməyi bacaran sənətkardır. Bu cəhət onun müharibə mövzusunda yazdığı hekayələrlə yanaşı, ***"Ölülər yalan danışmır", "Mis qazan", "Talada", "Ümid", "Xınalıq"*** və başqa hekayələrində, ***"Xallı maral", "Toy dəvətnaməsi"*** povestlərində də güclü və qabarıqdır. Povestlər işıqlı ideallar təbliğ edir, xalq malını dağıdanları, israfçıları, əliəyriləri, tüfeyli və kübar yaşayış tərzini ifşa edir.

***"Xallı maral"*** povestinin qəhrəmanı Zəkəriyyə harın zümrənin ad günləri və müxtəlif işrət məclisləri üçün bir-bir kəsdirib apardıqları xallı maralların qoruğunu dağıdır, "təbiət bu maralları o cür canavarlardan daha yaxşı qoruyar", deyə onları təbiətin qoynuna qovur.

***"Toy dəvətnaməsi"*** ibrətamiz sonluqla bitir: zavoddan oğurladığı bir maşın spirti xırıd edə bilməyib qamışlı gölməçəyə boşaldan baş şərabçı Vəli özü də həmin gölməçənin qurbanı olur.

## Tarixi romanlarda xüsusi üslub...

Göründüyü kimi, Fərman Kərimzadə maraqlı hekayə və povestləri vardır. Lakin Fərman Kərimzadə imzası daha çox tarixi roman müəllifi kimi məşhurdur. 1967-ci ildə çap olunmuş ***"Qarlı aşırım"*** onun yazıçı istedadını, ümidverici və gələcəkli bir nasir kimi yetişdiyini üzə çıxardı. F.Kərimzadə "Qarlı aşırım"da 30-cu illərin ziddiyyətlərini, kollektivləşmə dövrünün çətinliklərini, özündən əvvəlki nəsr ustalarını təkrar etmədən tamamilə yeni ruhda əks etdirdi. 30-cu illərə 60-cı illərin və altmışıncıların gözü ilə baxış, hadisələrin dolğun-dürüst mənalandırılması bu əsəri oxuculara sevdirdi. F.Kərimzadə “Qarlı aşırım”la Azərbaycan tarixi romanında yeni bir səhifə açdı, çox tezliklə yetmişinci illərin sayılan yazıçılarından birinə çevrildi və həmin roman əsasında film də çəkildi. Qarlı aşırım”da İsmayıl Şıxlının “Dəli Kür” romanı kimi Azərbaycan ədəbiyyatında yeni bir hadisənin əsasını qoydu. Hər iki yazıçımız qəhrəmanlarını təkcə sinfi-siyasi ədəbi platformadan deyil, həm də bir insan kimi, yaxşı və naqis cəhətləri ilə vəhdətdə təsvir etdilər. Bəli onlar bu yolu, həyatı və insanları sinfi mənsubiyyətindən asılı olmayaraq, həm də bütün insani keyfiyyətlərilə təsvir etdilər. Qarlı aşırım” romanında da hadisələr keçən əsrin iyirminci-otuzuncu illərində cərəyan edir. Burada da sinfi mübarizədən söhbət gedir. Amma müəlli sinfi toqquşmaların təsvirindən daha çox, bu konfliktdə, bu toqquşmada iştirak edənlərin ürək dünyasına enir.

Əsərdə Kərbəlayı İsmayıl quruluşla barışmır və onun məntiqi də tutarlıdır: ”Mənə dəyən kimə dəysəydi, indiyə qədər on dəfə silah götürərdi. Adamın varına da toxunarlar, torpağını da

götürərlər, nə olar, elə bilərəm əl çirkidi. Bəs hörmətə sözün nədir? Kişiliyə sözün nədir? Axı birdən – birə hər şeyi adamın əlindən almazlar".

Onun dostu, amma indi bolşevik mövqeyini qəbul edən Abbasqulu bəy də öz inadında haqlıdır. Çünki o, nahaq qan tökməyin, qırğının əleyhinədir. Beləliklə, iki dünyagörüşü üz-üzə gəlir.

Qarlı aşırım" xarakterlər romanıdır. Fərman Kərimzadə obrazların adi hərəkətlərini də ustalıqla canlandırır, həm də bu hərəkətləri üzdə, zahirdə deyil, daxili aləmdə də əks etdirirdi. Romanda təsirli səhnələr çoxdur. Kərbəlayı İsmayılla Abbasqulu bəyin görüşü yaxud Qəmlonun qəddarlığını üzə çıxaran səhnələr romanı oxuyan hər kəsin yaddaşında qalır. Xüsusilə, Abbasqulu bəyin qətlə yetirilməsi səhnəsi çox ustalıqla qələmə alınıb, burada hər bir cümlənin, hər bir ştrixin öz məna yükü var. Əgər belə demək mümkünsə, Fərman Kərimzadə bu səhnəni təsvir edərkən böyük bir kətan üzərində cizgilər yaradırmış, bu cizgilər get-gedə toranlıqdan çıxıb Qəmlonun qəddar, Abbasqulu bəyin ölərkən də qürurlu olduğu obrazlarını canlandırırmış. Bu roman yazıçı istedadını, ümidverici və gələcəkli bir nasir kimi yetişdiyini üzə çıxardı. F.Kərimzadə "Qarlı aşırım"da 30-cu illərin ziddiyyətlərini, kollektivləşmə dövrünün çətinliklərini, özündən əvvəlki nəsr ustalarını təkrar etmədən tamamilə yeni ruhda əks etdirdi. 30-cu illərə 60-cı illərin və altmışıncıların gözü ilə baxış, hadisələrin dolğun-dürüst mənalandırılması bu əsəri oxuculara sevdirdi. Xalq qəhrəmanı Abbasqulu bəy Şadlinskinin ömrünün son üç günü, xalqının səadəti yolunda ürəyini məşələ çevirməsi, cəsarət və qorxmazlığı, yüksək ağıl və idrak sahibi kimi tədbirli hərəkətləri, qolçomaq qiyamını öz qanı bahasına ləğv edə bilməsi yazıçının tarixi fakt və hadisələrə böyük duyum və həssaslıqla yanaşdığını, yüksək ümumiləşdirmə gücünə

malik olduğunu göstərir. Kollektivləşməyə partiya rəhbərliyi, 30-cu illər komsomolunun cəsur mübarizəsi, geniş kütlənin siyasi şüur səviyyəsi, mübarizə və döyüş iqtidarı, düşmən qüvvələrin, Qəmlo kimilərin sinfi mənafeyi, fərdi-psixoloji keyfiyyətləri, köhnə dünya adamlarının törətdikləri bəlaların qurbanı olan günahsız insanların taleyi romanda təbii boyalarla əks etdirilmiş, təsirli və inandırıcı verilmişdir. Romanda iki əsas obraz (Abbasqulu bəy və Kərbəlayı İsmayıl) diqqət mərkəzində olsa da, digər surətlər (Talıbov, Xəlil) heç də az sanballı deyillər. Kərbəlayı İsmayıl xarakter etibarilə bütövdür, yəni əzəldən Sovet hökumətinə zidd bir mövqedə dayanıb və heç cür kompromisə, azacıq güzəştə belə getməyi özünə rəva bilmir.

"Ə, nə hökumət, hansı hökumət? Mən belə hökumət tanımıram!" bu sözləri "Axırıncı aşırım" filmində Kərbəlayi İsmayıl deyir. Ancaq bu sözləri sovet hökumətinin qılıncının tiyəsi də, qəbzəsi də kəsdiyi 1967-ci ildə yazıçı, 60-cı illər nəslinin görkəmli nümayəndəsi Fərman Kərimzadə deyirdi. Qırmızı ilğımın puç və əfsanə olduğunu yazıçı fəhmi ilə çoxlarından əvvəl o duymuşdu. "Qarlı aşırım" romanı ilə aldanmış insan selini dayandırıb bəylikdən köləliyə sürüklənən bir xalqa aşırımın o üzündəki həqiqəti göstərirdi...

İllər keçdi, ilğım dağıldı, ədəbiyyatımızda və kinomuzda "Qarlı aşırım" ("Axırıncı aşırım") qaldı...

Yazıçının ***"Xudafərin körpüsü", "Çaldıran döyüşü"*** kimi tarixi romanları Azərbaycan ədəbiyyatında dərin iz qoyan əsərlərdən idi. Bu cəhət onun müharibə mövzusunda yazdığı hekayələrlə yanaşı, ***"Ölülər yalan danışmır", "Mis qazan", "Talada", "Ümid", "Xınalıq"*** və başqa hekayələrində, ***"Xallı maral", "Toy dəvətnaməsi"*** povestlərində də güclü və qabarıqdır…

F.Kərimzadə yaxşı yazıçı olmaqla yanaşı, yaxşı publisist, yaxşı redaktor idi.

Səksəninci illərin əvvəllərində F.Kərimzadə şah İsmayıl Xətainin həyatından söz açan ***“Xudafərin körpüsü” və “Çaldıran döyüşü”*** dilogiyasını qələmə alır. Xatırladaq ki, həmin illərdə Şah İsmayılın anadan olmasının 500 illiyi qeyd olunurdu. F.Kərimzadə ilə yanaşı, Əlisa Nicat “Qızılbaşlar”, Əzizə Cəfərzadə “Bakı-1501” romanlarını yazdılar. Xətaiyə - bu böyük sərkərdəyə, dövlət xadiminə və gözəl şairə birdən-birə dörd roman həsr edilməsinin səbəbi məlum idi: Xətai Azərbaycan tarixinin ən önəmli səhifələrini yazsa da Azərbaycan ədəbiyyatında onun bədii obrazı yaradılmamışdı. F.Kərimzadənin bu romanı bədii ədəbiyyatın Xətaiyə, onun şəxsiyyətinə böyük marağın ifadəsi idi. Çoxplanlı, çoxobrazlı, süjeti və konflikti çoxşaxəli bu dilogiyada Şah İsmayıl Xətainin həyatı, hakimiyyəti Çaldıran döyüşünə qədər təsvir edilir, müəllif həm tarixi mənbələrin gözü ilə, həm də bədii təxəyyülü vasitəsilə Şah İsmayılı vahid milli dövlətin ilk qurucusu kimi canlandırır. Şeyx Heydər, Ağqoyunlu Sultan Yaqub, Şah İsmayılın nənəsi –Uzun Həsənin anası Sara xatun, Əbu Səid, Uzun Həsən, Məsih Mirzə, Aləmşahbəyim, RüstəmMirzə, Hüseyn Lələ bəy... bunlar hamısı tarixi şəxsiyyətlərdir və hər birinin taleyi sonadək izlənilir. İstər “Xudafərin körpüsü”, istərsə də “Çaldıran döyüşü” tarixi hadisələrə və tarixi şəxsiyyətlərə şəxsi mənafe daşımaqdan uzaqdır. Doğrudur F.Kərimzadə Şah İsmayılın vurğunu idi. Bu romanlar F.Kərimzadənin vətənçilik ideallarını ifadə edirdi. Bəli, hər bir xalqın tarixində unudulmaz səhifələr olur. Bu cür səhifələr adətən ictimai şüurun yetkinliyi, milli dirçəliş və qurtuluş, böyük amallar uğrunda çarpışmanın kəskinliyi və nəticələri ilə şərtlənir.

XVI yüzilliyin sübh çağında Şah İsmayılın başçılığı ilə görülən işlər xalqımızın sonrakı müqəddəratı üçün güclü özülə çevrildi. Şah İsmayıl kimi tarixi şəxsiyyətlər heç vaxt unudulmur, incəsənətin, ədəbiyyatın gücü ilə yenidən doğulur. F.Kərimzadənin uzun tədqiq və araşdırmalardan sonra qələmə aldığı **"Xüdafərin körpüsü"** dilogiyası xalqımızın tarixinə, 500 il əvvəlki babalarımıza məhəbbət və hörmətin ifadəsidir. Oxucunu orta əsr Azərbaycan həyatının həyəcanlı səhnələri ilə qarşılaşdıran bu roman Ağqoyunlularla Səfəvilər hakimiyyətinin qovuşduğu, birincilərin ikincilərlə əvəzləndiyi dövrün, Azərbaycan torpaqlarının birlik, Azərbaycan mədəniyyətinin yüksəliş dövrünün bədii salnaməsidir. F.Kərimzadə yeni faktlar əsasında dövrün ziddiyyət və çətinliklərini, qızılbaş bayrağı altında tarixi mübarizənin məqsədini, köklərini müasirlik ruhu ilə təsvir etmiş, qaranlıq səhifələri kifayət qədər işıqlandırmışdır. "Xüdafərin körpüsü" istər yazı tərzi, istərsə də təhkiyə və dialoqlarının səlisliyi, zənginliyi ilə seçilən bir romandır, qəhrəmanlıq dastanıdır. Hər iki kitab ("Xüdafərin körpüsü" və "Çaldıran döyüşü") yüksək ideya-estetik keyfiyyətləri, güclü ictimai-siyasi məziyyətləri ilə yanaşı, quruluş, dil xüsusiyyətləri ilə də diqqəti çəkir. Zəngin bədiilik vasitələri oxucunu 500 il keçmişə aparır, təsvir edilən dövrün havasına daxil edir. Gözəl təbiət lövhələri, min bir rəng heyranlığı ilə ictimai hadisələrin rəmzi əlaqəsi yaranır.

Tarixi romanlar ustası Fərman Kərimzadənin ***"Xudafərin körpüsü"*** romanında XV əsrin axırı, XVI əsrin əvvəllərində baş vermiş tarixi hadisələr, Şah İsmayıl Xətainin uşaqlıq və gənclik illəri, hakimiyyət uğrundakı mübarizəsini qələmə alınmışdır. Romanda həmçinin Şah İsmayıl Xətainin bir şair, sərkərdə və dövlət xadimi kimi yetişib formalaşdığı tarixi şərait təsvir edilmiş, Uzun Həsən, Sara Xatun, Hüseyn Lələ bəy, Əbih

Sultan kimi tarixi şəxsiyyətlərin yadda qalan obrazları yaradılmışdır . Romandakı obrazların əksəriyyəti tarixi şəxsiyyətlərdir.

*İcmalın bu hissəsində oxucular "Xudafərin körpüsü" romanından Şah İsmayıl Xətayinin uşaqlıq illəri göstərilən parçanı səhnəcik şəklində təqdim edirlər. Səhnəyə əsərə uyğun dekorasiyalar qoyulur. Tamaşada İsmayıl, onun anası Ağqoyunlu hökmdarı Uzun Həsənin qızı Aləmşahbəyim, İsmayılın qardaşı Sultanəli, lələləri Hüseyn, qulluqçuları Səkinə rolunu ifa edən oxucular iştirak edirlər. İsmayıl, anası Aləmşahbəyim, Səkinə hücrədə oturublar.*

*Sultanəli rəngi ağarmış, çox həyəcanlı halda hücrəyə girir. Üzünü anasına tutub deyir.*

**Sultanəli:** Ana gəlirlər.

*Aləmşahbəyimin ağzında dili tikan-tikan olur. Bütün bədənindən taqətsizlik adlı bir gizilti keçir.Həyacanlanır.*

**Sultanəli:** Qalaya çox böyük dəstə qalxdı. Yəqin ki, bizi aparmağa gəlirlər.

**Aləmşahbəyim:** Kim gəlir?

*İsmayıl qalxıb qardaşından soruşur.*

**İsmayıl:** Hara? Evimizə?

*Sultanəli İsmayılın qarşısında çöməlib, onunla açıq danışmaq istəyir.*

**Sultanəli:** Evimizə yox, mənim balaca qardaşım. Bu sonuncu günə oxşayır. Kişi kimi mərd-mərdanə dayan, ölüm ayağında özünü sındırmamaq nəslimizin adətidir. Onlara yalvarmaq yox, üzlərinə tüpürmək lazımdır.

**Aləmşahbəyim:** Səkinə, mənim zümrüd qaşlı üzüyümü mücrüdən çıxar ver.

*Səkinə qorxu içində, titrəyə-titrəyə gedib mücrüdən zümrüd qaşlı üzüyü gətirir. Aləmşahbəyim üzüyü barmağına keçirir, sonra üzüyün qaşını qaldırır.Zəhəri Səkinəyə göstərib deyir.*

**Aləmşahbəyim:** Bunu nənəm Sara xatın bağışlayıb. Dar ağacından, qılıncdan irəlidir.

*İsmayıl mat-mat onlara baxır, sözlərinə qulaq asır, amma işin məğzini başa düşə bilmir. Sultanəlidən soruşur:*

**İsmayıl:**Nə olub?

*Sultanəli onu başa salmaq üçün qolundan tutub aparır.*

**Sultanəli:** İsmayıl, biz kişiyik, axıra qədər də özümüzü kişi kimi aparmalıyıq. Atamızın düşmənləri bizi aparmağa gəlib.Onlar yəqin ki, bizi edam edəcəklər. O düşmənlərə əyilməməliyik. Atamız da belə kişi olub. Bu həbi qoy cibinə. Zəhərdi. Gördün ki, cəllad öz işini görməyə hazırlaşır, onda bu həbi udarsan.

*Sultanəli üzünü döndərib arxasını çevirir ki, kiçik qardaşı onun gözlərindəki yaşı görməsin. Sonra o qardaşının aydın, qorxu-hürküdən uzaq sifətinə baxır.Onu qacaqlayıb bağrına basır.*

**İsmayıl:** Sultanəli, atamız o gələn adamlardan qorxurdu?

**Sultanəli:** Yox!

**İsmayıl:** Onda biz niyə qorxaq ki?

**Sultanəli:** Əhsən, qardaşım!

Birdən qapının kilidinin səsi eşidilir. Sultanəlinin gözləri içəri girən adamlara tikir. Bu an o ucaboy, başında çalma, sifəti çox tanış gələn kişini tanıyır.

**Sultanəli:** Ana, qızılbaşlar! Hüseyn Lələ?!

*Hüseyn Lələ yetirən kimi Sultanəlini bağrına basır. İsmayıl yetirib onu itələyir. İsmayıl qışqırır:*

**İsmayıl:** Burax qardaşımı, cəllad!

**Hüseyn Lələ:** İsmayıl, gözümün işığı, maşallah, necə də böyümüsən.

**İsmayıl:** Sən bizi öldürməyə aparırsan?
*Hüseyn Lələnin gözləri yaşarır.Sultanəli qardaşını başa salmağa çalışır.*
**Sultanəli:** İsmayıl Hüseyn Lələ atamızın dostu, bizim ləләmizdir. O, bizi xilas etməyə gəlib.
**Aləmşahbəyim:** Hüseyn Lələ bizi bir halı elə, görək, işimiz necə oldu?
**Hüseyn Lələ:** Hər şey yaxşıdır. Baysunqur Şamaxıdadı. Qızılbaşlar Rüstəm Mirzəni taxta çıxartdılar. O da fərman verib sizi azad elədi. İndi gəlmişik. Təbrizə gedirik.
**Aləmşahbəyim:** Təbrizə niyə? Ərdəbilə getsək salamatlıq olar.
**Hüseyn Lələ:** Rüstəm Mirzə uşaqları orda təntənə ilə qarşılamaq istəyir. Oradan da Ərdəbilə qayıdacağıq.
*Tamaşanın sonunda iştirakçılar baş əyib səhnədən ayrılırlar. Kitabxanaçı icmalı davam etdirir.*

**Kitabxanaçı:** ″Xudafərin körpüsü" dilogiyasının ikinci kitabı ***"Çaldıran döyüşü"*** adlanır.Yazıçının Çaldıran döyüşü romanı görkəmli dövlət xadimi, sərkərdə və şair, ulu tariximizdə xüsusi yeri olan Şah İsmayıl Xətainin həyatından, çoxcəhətli ictimai fəaliyyətindən bəhs edən "Xudafərin körpüsü" dilogiyasının ikinci hissəsidir. Siyasət meydanına yenicə qədəm qoyan Şah İsmayılın vahid və qüdrətli Azərbaycan uğrunda apardığı gərgin mübarizələr, ağıllı dövlət xadiminin mədəniyyətin və sənətin yüksəlməsinə göstərdiyi qayğı, xalqımızın orta əsr məişət tərzi romanın əsas mövzusudur. Bu romanda Şah İsmayıl Xətai müdrik dövlət xadimi, qayğıkeş sərkərdə, istedadlı şair kimi göstərilir. Romanda hadisələrin reallığı, qəhrəmanların mübarizliyi, vətənpərvərliyi, insana hörmət və məhəbbət çox təsirli qələmə alınmışdır. Şah İsmayılın məqsədi Azərbaycanı birləşdirmək, onun ərazi

bütövlüyünü, dilini, müqəddəratını müdafiə etməkdən ibarət olmuşdur.

Ömrünün son illərində F.Kərimzadə daha iki tarixi roman yazdı. **”Təbriz namusu”** və **“Qoca qartalın ölümü”.** Kərbəlayı İsmayıl-Abbasqulu bəy, Qəmlo, Talıbov dövrünün təsviri canlı yaddaş və xatirələrdən gəlirdi. Şah İsmayıl dövrünün təsviri isə oxuduğu mənbələrdən və böyük hökmdarın poeziyasından əxz olunmuşdu. ”Təbriz namusu”nda isə F.Kərimzadə XIII-XIV əsrlərə gedib çıxır. Başlıca mənbə orta əsr tarixçisi Fəzlullah Rəşidəddinin əsəridir. Bu əsərdə Elxani hökmdarlarının dövrü təsvir olunur və F.Kərimzadə də bu nöqtədə tarixçi ilə birgə hərəkət edir. F.Kərimzadə tarixi hadisələri və şəxsiyyətləri bədiilik meyarı ilə təsvir etmişdir.

F.Kərimzadənin sonuncu tarixi romanı ***“Qoca qartalın ölümü”*** idi. Bu romanda XVIII əsrdə baş verən hadisələr öz əksini tapır. Bu romanda da tarixi mənbələrin təsiri hiss olunur (xüsusilə “Qarabağnamə”lər), ancaq burada da tarixi həqiqətlə bədii həqiqət bir-birini tamamlayır. Qoca qartal simvolik obrazdır-yazıçı rus imperiyasına işarə edir. O ölürsə də, yeni, cavan qartallar səmaya uçur və beləliklə, rus imperiyasının işğalçılıq siyasəti davam edir. İkiyə bölünmüş Azərbaycandan sonra yeni ölkələr, məmləkətlər fəth edilir, çarı Qırmızı İmperiya əvəz edir. Fərman Kərimzadənin Qarabağ xanlığının tarixinə həsr etdiyi “Qoca qartalın ölümü” romanı uzun illər apardığı səmərəli axtarışların məhsuludur. Müəllif romanı 1988-ci ildə Yaltada yazmış, roman 1991-ci ildə çap olunmuşdur. Romandakı hadisələr Qarabağda cərəyan edir, Qarabağ xanlığı haqqında tarixi mənbələr əsasında maraqlı məlumat verilir.

Oxucularımızın sevimli yazıçımız haqqında olan fikirlərini öyrənmək məqsədilə anket sorğularının keçirilməsi məqsədə

uyğundur. Bunu nəzərə alaraq hazırladığımız sorğunu sizə təqdim edirik.

**1.** Fərman Kərimzadəni tanıyırsınızmı?
☺ Bəli
☺ Xeyir

**2.** Yazıçı neçənci ildə anadan olmuşdur?
☺ ________________________________

3. Fərman Kərimzadənin harada anadan olduğunu bilirsinizmi?

☺ Bəli ____________
☺ Xeyir

4. Fərman Kərimzadənin əsərlərini oxumusunuzmu?
☺ Bəli
☺ Xeyir

5. Yazıçının "Qarlı aşırım" əsəri ilə İsmayıl Şıxlının "Dəli Kür" əsəri arasında bənzərlik nədir?

☺ ________________________________

**6.** Yazıçının ilk hekayəsinin necə adlandığını bilirsinizmi? Əgər bilirsinizsə adını qeyd edin.
☺ Bəli ____________________________
☺ Xeyir

7. Fərman Kərimzadə ixtisasca neçi idi?

☺ ________________________

8. Yazıçının “Çaldıran döyüşü” əsərinin baş qəhrəmanı kimdir?

☺ ________________________

9. Fərman Kərimzadənin ən çox sevdiyiniz əsərinin adını qeyd edin

☺ ________________________

10. Fərman Kərimzadənin vəfat etdiyi ili qeyd edin.

☺ ________________________

Kitabxanalarda Fərman Kərimzadənin yaradıcılığını oxuculara tanıtmaq məqsədilə ***“Əsərləri kino sənəti üçün zəngin material olan sənətkar”*** başlığı altında oxucularla görüş təşkil etmək olar. Oxucular zala toplaşdıqdan sonra, əvvəlcə onlara Fərman Kərimzadədən bəhs edən slayd təqdim olunur. Sonra isə görüşü hazırlayan kitabxanaçı Fərman Kərimzadənin Azərbaycan kino sənətində göstərdiyi nailiyyətlərdən söhbət açır.

**Kitabxanaçı:** Fərman Kərimzadənin ilk romanı əsasında çəkilmiş "Axırıncı aşırım" filmi Azərbaycanfilmin uğurlarından sayılır. Yazıçının "Toy toğlusu" hekayəsi əsasında qısametrajlı "Zınqırov", bir novellası əsasında "Mənim arvadım, mənim uşaqlarım" filmi çəkilmişdir. Şah İsmayıl haqqında tutarlı bir əsər olan bu dilogiya özünün kino təcəssümünü gözləyir. F.Kərimzadə ixtisasına görə rəssam idi. O, maddi-mədəniyyət abidələrinin qorunub-öyrənilməsində əməyini əsirgəmirdi. Ölkəmizin müxtəlif yerlərindən topladığı sənət nümunələri, qədim əşyalar, silah və alət

növləri yazıçıya tarixi qəhrəmanların həyatını, məişətini, mübarizəsini canlandırmaqda kömək edirdi. Yazıçı təsvir etdiyi hadisələrin baş verdiyi əraziləri qarış-qarış gəzir, qəhrəmanlarının yeri-yurdu ilə maraqlanırdı. Abbasqulu bəy Şadlinskinin ev muzeyinin açılmasında, Şadlinski ilə bağlı sənədlərin toplanmasında yaxından iştirakına görə (Şadlinskinin 100 illiyi günlərində) Naxçıvan MSSR Mədəniyyət Nazirliyinin Fəxri Fərmanı ilə mükafatlandırılması da bununla bağlıdır.
Məruzənin sonunda oxucular yazıçının "Qarlı aşırım" əsəri əsasında çəkilmiş "Axırıncı aşırım" filminə tamaşa edirlər. Sonra kitabxanaçı oxucuların film haqqında təsuratlarını öyrənir.

Kitabxanalarda oxucular tərəfindən sevilən tədbirlərdən biri də müsabiqələrdir. Bildiyimiz kimi Fərman Kərimzadə bir-birindən maraqlı tarixi əsərlərin müəllifidir. Müsabiqə zamanı həmin əsərlərə uşaqlar tərəfindən karikatura çəkilməsi tapşırılır. Şəkillərin hazırlanması üçün uşaqlara iki həftə vaxt verilir. Bu vaxt ərzində oxucular həm Fərman Kərimzadənin əsərlərini oxuyur, həm də oxuduqları və ən çox bəyəndikləri hekayəyə, əsərə karikatura çəkirlər. Ən gözəl məna kəsb edən rəsm işləri mükafatlandırılır.

Rəsm müsabiqələri ilə yanaşı başqa müsabiqələrin də təşkili mümkündür. Məsələn, uşaqların ifasında Fərman Kərimzadənin hekayələri, əsərləri səhnələşdirilərək münsiflərə təqdim olunur. Münsiflər heyəti kitabxana müdirindən, teatrımızın görkəmli nümayəndələrindən təşkil edilir. Əsəri ən gözəl səhnələşdirilən uşaqlardan ibarət komanda mükafatlandırılır.

Kitabxanalarda yuxarı sinif şagirdlərinin iştirakı ilə "Fərman kərimzadə yaradıcılığı müasir gəncliyin gözü ilə" konfrans da təşkil etmək mümkündür. Konfransdan öncə onun proqramı tərtib

olunmalı, konfransın keçiriləcəyi dəqiq vaxt müəyyən olunmalıdır. Proqramda konfransda çıxış edəcək qonaqların, ədəbiyyatşünasların və şagirdlərin adları, onların çıxış edəcəkləri mövzular, tədbirin keçiriləcəyi məkan və zaman qeyd olunur. Konfrans zamanı Fərman Kərimzadə yaradıcılığına yaxından bələd olan jurnalist, yazıçı və şairlərin çıxışları dinlənilir. Yaxşı olar ki, konfransa yazıçının yaradıcılığı ilə daha yaxından maraqlanan professor Yavuz Axundlu, xalq şairi Sabir Rüstəmxanlı, professor Qəzənfər Paşayev, yazıçının qızı Yeganə Kərimzadəni dəvət edə bilərik. Oxucu konfransının planını sizə təqdim edirik:

1. Giriş hissə (Fərman Kərimzadə həyat və yaradıcılığı haqqında məruzə)

2. Fərman Kərimzadənin yaradıcılığı haqqında kitabxana rəhbərliyinin, jurnalist, yazıçı və şairlərin çıxışları.

3.Yuxarı sinif şagirdlərindən ibarət olan oxucuların Fərman Kərimzadənin müxtəlif əsərləri ətrafında məruzələri.

4. Konfransın yekunu.

Yubiley tədbirləri arasında xatirə gecəsi özünəməxsus yer tutur. Xatirə gecəsinə müxtəlif başlıqlar vermək olar: “Xalqa aşırımın o üzündəki həqiqəti göstərən sənətkar”, “Tarixi romanlar banisi Fərman Kərimzadə”, “Şöhrəti xalq bağrından rişələnən ustad sənətkar”, “ Fərman Kərimzadə bir insan kimi...”, Aşırımın o üzündəki həqiqət…». "Qarlı aşırımdan Axırıncı aşırıma doğru”, ‘‘Azərbaycançılıq ideologiyasının bətnindən doğulmuş insan”, “Ölümsüzlüyün zirvəsinə ucalan insan” və s.

Fərman Kərimzadəyə həsr olunmuş xatirə gecəsinin ssenarisini sizə təqdim edirik.

(Tədbir kitabxana rəhbərliyi tərəfindən açıq elan olunur. Xatirə gecəsinə Fərman Kərimzadə yaradıcılığına yaxından bələd olan tanınmış yazıçılar, tənqidçilər, jurnalistlər dəvət olunur. )

**I aparıcı:** Salam hörmətli qonaqlar, əziz dostlar.

**II aparıcı:** Bildiyimiz kimi bu il sənət və ədəbiyyat aləmində tarixi romanlar müəllifi kimi tanınan yazıçımız Fərman Kərimzadənin 85 illik yubileyi qeyd olunur. Bu münasibətlə kitabxanamızda təşkil olunmuş xatirə gecəsində hamınızı xoş gördük.

**I aparıcı:** Çox əsrlik Azərbaycan ədəbiyyatı tarixində Fərman Kərimzadə adı və yaradıcılığı xüsusi yer tutur. Həddən artıq bilikli geniş ədəbi qabiliyyətə malik vətənpərvər Fərman Kərimzadə doğma xalqın milli-mənəvi sərvətinin inkişafına ömrünü səxavətlə sərf etmiş, ona öz yazışı, publisist qələmi ilə xidmət göstərmişdir. Görkəmli söz ustası geniş planlı əsərlərində millətinin həyatını, eyni zamanda doğma yurdun mənzərələrini, tarixini əks etdirmişdir.

**II aparıcı:** İnsan gəldi-gedər cismi ilə deyil, əbədi ruhu, əməlləriylə yaşayır... Fərman Kərimzadə insanlara qəlbən bağlı idi. O, yaşamağı, həyatı, təbiəti çox sevirdi. Yaxşı vətənpərvər insanlara ürəyini verərdi. İçindəki göynərtisi, iztirabı, başının üstündəki tüstü-dumanıyla sanki Ağrı dağıydı.”Vedinin yanı dağlar” deyimini eşidəndə gözündən gilə-gilə yaş axardı. Ağlı, mənəvi saflığı ilə Tanrı onu xoşbəxt yaratmışdı. Ancaq onun içində gözə görünməyən, duyulmayan yurd həsrəti vardı...

**I aparıcı:** O, həm də zərif, incəduyumlu şeirlər müəllifi idi. Hər dəfə onun ssenarisi əsasında çəkilən “Axırıncı aşırım” bədii filmi ekranlarda nümayiş etdiriləndə millətimizin yaşadığı çətin günlər,

keçdiyi ağır yollar yenidən göz önündə canlanır. Abasqulu bəy kimi vətənpərvərlərdən, Kərbəlayi kimi "Namus – qeyrəti, duz-çörəyi" urvatlı tutanlardan qürur hissi duyuruq. Əsəri oxuyan hər bir oxucu Abasqulu bəyin qeyrət simvolu olduğunu anlayır.

**II aparıcı:** Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Fərman Kərimzadə zəngin ədəbi-bədii irs yaratmış, istedadlı nasir, publisist, mahir pedoqoq və ictimai xadim kimi şöhrət qazanmışdır. O, uşaqlıq illərini Ağrı dağının romantik qoynunda yerləşən cənnət Vedibasarında keçirmiş, mənəvi aləmini zənginləşdirmiş, təbiətin gözəlliklərindən bədii-estetik zövq almışdır. Kafiq qalası, Görsən dağları,soyuq bulaqlar, şır-şır axan çaylar, al-yaşıl geyinmiş bağlar-bağatlar, nərgizli, bənövşəli, yasəmənli ucsuz-bucaqsız tarlalar, çəmənliklər, Dədə Qorqud keçən müqəddəs yerlər Fərman Kərimzadəni təbiətin vurğunu etmişdir. İnsan qəlbini təlatümə gətirən bu müqəddəs yerlər, cənnətməkanlar F.Kərimzadənin bədii-estetik zövqünün zənginləşməsində müstəsna rol oynamışdır.

**I aparıcı:** Fərman Kərimzadə alovlu qəlbinin arzu və istəklərini poetik dillə ifadə etmişdir.
Gördüyüm iş əbədiymiş, dərinmiş,
Bu qayalar Qorqud nəğməleriymiş
Pərdəsi daş, qundağı daş, simi daş,
Bu tamburu çalan lazım, a qardaş.
Vətən niskili, yazılmamış sənət inciləri, deyilməmiş publisist sözləri qəlbində qalan Fərman Kərimzadə doğma ata-baba yurdu Vedi həsrətilə dünyasını dəyişmişdir. Xalq şairi Səməd Vurğun gözəl demişdir ki, vətəninin, elinin qədrini bilən, sevərək yaşayan, sevilərək dünyasını dəyişən sənətkarlar ölmürlər, zəngin bədii irsilə

əbədi yaşayırlar. Fərman Kərimzadə ölümsüzlüyün zirvəsinə ucalan və milyonların qəlbində əbədi yaşayan sənətkardır.

**II aparıcı:** Fərman Kərimzadə maraqlı yazıçı olduğu kimi, həyatda da özünəməxsus insan idi. Bütün ağlı, insanlığı, mənəvi gözəlliyi ilə Allah onu xoşbəxt yaratmışdı. Amma bu xoşbəxtliyin içində kənardan heç kəsin görmədiyi, duymadığı bir dərd vardı...

**I aparıcı:** Doğrudan da, Fərman Kərimzadənin ədəbi taleyi ilə şəxsi taleyi arasında qəribə bir oxşarlıq vardı. Əsrlər boyu xalqının başına gələn dərdlər, faciələr, bəlalar onun da taleyindən yan keçmədi. XX əsrdə ən faciəli tarixini yaşayan Vedi və vedililər dəfələrlə məkrli erməni siyasətinin qurbanı olub, deportasiyaya məruz qaldı. 1948-ci ildə başlanan deportasiyada onun da nəsli, el-obası sürgünlərə, səs-küysüz soyqırımlara düçar oldu. Fərman Kərimzadə də bu taleyi yaşadı. Ancaq illər keçsə də Vedini unuda bilmədi. Ağrı dağının ağrılarını ürəyində daşıdı. 1988-1989-cu illərdə Vedinin qara günləri yenidən başladı. Bu dəfə dərd batmanla gəldi. Bu dəfə Vedidə bir nəfər də azərbaycanlı qalmadı.

**II aparıcı:** Fərman Kərimzadə Vətənini sevirdi. Bu özgə bir sevgi idi. Bəlkə ona görə də xalqının başına gələn fəlakətlərin kökünü keçmişdə axtarırdı. O illərdə Fərman Kərimzadə Vedibasarın sözə qarışıb qələmlə döyüşən sərkərdəsi, başındakı tüstü-dumanı ilə elə bil Ağrı dağının özü idi. Vedinin adı çəkilən kimi gözündə yaş gilələnir, dilindənsə ürəkləri titrədən bayatı qopurdu:

Vedinin yanı dağlar,
Ürəyi, canı dağlar,
Burda bir el var idi,
Siz deyin, hanı dağlar?!

Çox az adam bilir ki, bu bayatının müəllifi Fərman Kərimzadədir. O, yazıçı olmamışdan əvvəl rəssam idi.

**I aparıcı:**

II aparıcı: Hanı qəbirlərin, Sarı Dolama?
Onlar ki, əbədi yatmalıydılar.
Hər vaxt yuxumuzda minib atlara
İqlimdən-iqlimə çapmalıydılar.

**II aparıcı:** Ədəbiyyata iki səhifəlik "41 nömrəli ayaqqabı" hekayəsi ilə gəlmiş, sonra böyük tarixi hadisələri qələmə alaraq gözəl romanlar müəllifi kimi tanınmışdı görkəmli yazıçı. Hərdən adama elə gəlir ki, o, dünyaya göz açdığı 1937-ci ilin tarixi yaddaşıyla ömrünün sonuna kimi yol gəlib. Onun hər uğurlu əsərinin əsasında Azərbaycanın tarixi həqiqətləri, qəhrəmanlıq səhifələri dayanırdı.

**II aparıcı:** Deyirlər, Fərman Kərimzadə bahar çağı çiçəkləyən şaftalı ağacını çox sevərdi. Bəlkə ona görə ki, çiçəkləyən şafta lı ağacı insanın çəhrayı arzularına bənzəyir. O, ömrü boyu ağlı-qaralı dünyadan çəhrayı rəngə doğru can atırdı. Arzuları, əməlləri, istəkləri şaftalı ağacının çiçəkləri kimi işıq saçdı. Meyarlar dəyişsə də,o öz zirvəsində necə varsa, eləcə də əzəmətli qaldı. Baharda dünyaya gələn sənətkar elə baharda da 1989-cu il mayın 17-də dünyasını dəyişdi.

**I aparıcı:** Bizə qalan isə əsərləri və Fərman "Qarlı aşırım" romanı əsasında rejissor Kamil Rüstəmbəyovun 1971-ci ildə elə yazıçının öz ssenarisi əsasında ekranlaşdırdığı "Axırıncı aşırım" filmi oldu. O film ki, Azərbaycan kinosunun şah əsrlərindən biridir.

O, ömrün aşırımlarını aşa bilməsə də, tarixin aşırımlarını aşacaq və ədəbiyyatımızda özünəməxsus, təkrarsız Fərman Kərimzadə kimi qalacaq.

**II aparıcı:** “Abbasqulu bəy necə böyük sərkərdə idisə, Fərman Kərimzadə də elə böyük yazıçı idi… ”Qarlı aşırım” romanını bir daha oxuyandan sonra bu qənaətə gəlmək olur ki, bu əsər Fərman Kərimzadənin möhtəşəm söz abidəsi idi. Bəli, Fərman Kərimzadə zəngin tarixi romanlar yaratmış fitri istedadlı sənətkar, yüksək ideyalı hekayələr, povestlər, etnoqrafik eskizlər, oçerklər, məqalələr, insan qəlbini təlatümə gətirən poetik əsərlər müəllifidir. Onun bədii yaradıcılığı, mahir pedoqoqluğu və rəssamlığı bir-birini tamamlayır, ona dərin hörmət qazandırırdı.

**I aparıcı:** Fərman Kərimzadə mütaliəni çox sevirdi. O, hər şeyi real həyatla vəhdətdə qəbul edirdi. Onu əbədiyaşar edən tarixi romanları, povest və hekayələridir. Fərman Kərimzadə Azərbaycan xarakterinin mahir yaradıcısı, əsl vətəndaş kimi Azərbaycan namusunun bir parçası idi. Fərman Kərimzadə bədii yaradıcılığı ilə pedoqoji fəaliyyətini vəhdətdə inkişaf etdirmiş, tarixi sənədləri, arxiv materiallarını, memuarları, səyahətnamələri, monoqrafiyaları, tədqiqat əsərlərini, dissertasiyaları, əlyazmalarını, şəxsi məktubları axtarıb tapmış, çox diqqətlə nəzərdən keçirmiş və tarixi romanlar yazmaqdan ötrü zəngin mənbə toplamışdır. Ixtisasca rəssam olan F.Kərimzadə maddi-mədəniyyət abidələrinə böyük maraq göstərirdi.

Onun topladığı materialllar zəngin salnamə mahiyyətli misilsiz xəzinə olmuşdur. Buna görə də Fərman Kərimzadənin əsərləri

ədəbi-tarixi salnamə təsiri bağışlayıb yaşayır və müdrik sənətkarı milyonların qəlbində yaşadır.

**II aparıcı:** Fərman Kərimzadə həyatı ədəbiyyata gətirdiyindən yaradıcılığında obrazlar qalereyası da olduqca real və zəngindir. Ziddiyyətli, koloritli obrazlar, min illərin o üzündəki tarixi məqamlar və yaşantılar, xalqın milli və mənəvi yüksəlişi, uğurlar və məğlubiyyətlər, şərlə xeyrin amansız mübarizəsi və bütün bunların fonunda yazıçı şəxsiyyəti. Çünki həmkarları dövrün ədəbi əsərlərini yazanda o, yaddaşımızın üstünə çökmüş hisi, pası unutqanlıq qalıqlarını bir kənara atıb əsl ədəbiyyat nümunələri yaratdı. Fərman Kərimzadə maraqlı yazıçı olduğu kimi, həyatda da özünəməxsus insan idi.

Fərman Kərimzadə ədəbiyyatda, dostlarının xatirəsində həmişə diridir. Ömrü boyu 52 il ərzində o, çox aşırımlardan keçdi, çox maneələrlə üzləşdi, amma axırıncı aşırımı – xalqın, əzizləri vedililərin böyük dərdləri qalaqlanan axırıncı aşırımı keçə bilmədi.O aşırımda F.Kərimzadə heykələ döndü. Cəmi 52 il ömür sürmüş gözəl ədibin, qeyrətli vətəndaşın yaradıcılığı, xüsusən milli yaddaşımızın oyanmasında mühüm rol oynamış tarixi romanları ona əbədi ölməzlik qazandırmışdır. Bizə qalan isə əsərləri və Fərman Kərimzadənin "Qarlı aşırım" romanı əsasında rejissor Kamil Rüstəmbəyovun 1971-ci ildə elə yazıçının öz ssenarisi əsasında ekranlaşdırdığı "Axırıncı aşırım" filmi oldu. O film ki, Azərbaycan kinosunun şah əsərlərindən biridir. O, ömrün aşırımlarını aşa bilməsə də tarixin aşırımlarını  aşacaq və ədəbiyyatımızda özünəməxsus, təkrarsız Fərman Kərimzadə kimi qalacaq.

**Ədəbiyyat siyahısı:**
**Əsərləri**

Seçilmiş əsərləri : 5 cilddə. II cild : Çaldıran döyüşü : roman. - Bakı : Ağrıdağ, 2003. - 324 s.

Seçilmiş əsərləri : 5 cilddə. IV cild : Təbriz namusu. Vedinin yanı dağlar. - Bakı : Ağrıdağ, 2005. - 320 s.

Seçilmiş əsərləri : 5 cilddə.V cild : Qoca qartalın ölümü. - Bakı : Ağrıdağ, 2007. - 248 s.

Çaldıran döyüşü : roman. - Bakı : Kitab klubu, 2016. - 368 s.

Xudafərin körpüsü : tarixi roman. - Bakı : Çaşıoğlu, 2007. - 328 s. - (Azərbaycan Ədəbiyyatı).

Xudafərin körpüsü : tarixi roman. - Bakı : Kitab klubu, 2016. - 448 s.

Qarlı aşırım : tarixi roman. - Bakı : Kitab klubu, 2016. - 400 s.

Xallı maral: hekayə // Azərbaycan nəsri antologiyası. – Bakı : Şərq-qərb, 2006. 170-200.

***Elektron resurslar***

Xudafərin körpüsü [Elektron resurs] / Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. - Elektron mətn. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. opt. disk (CD-ROM) : birrəngl. : il. ; 12 sm. - (Nizami layihəsi).

*Uşaqlar üçün*

"Tutdum orucu İrəmazanda" ; "Hophop" : Mirzə Ələkbər Sabir haqqında hekayələr // Seçilmiş əsərləri. 5 cilddə.– Bakı : 2007. – C.5. - S. 194-202.

Şah İsmayılın uşaqlıq illəri : "Xudafərin körpüsü" romanından parçalar // Talvar. - Bakı : Təhsil, 2009. - S. 91-100. - (Məktəb Kitabxanası).

**Haqqında**

**Kitablarda**

**Axundlu Y.** Fərman Kərimzadənin tarixi romanları // Mənim ədəbi dünyam. - B. : Maarif, 1998. - S. 123-140.

**Paşayev Q.** Fərman Kərimzadə // Borcumuzdur bu ehtiram. - B. : Qarabağ, 2010. - S. 102-104.

**Xəlilzadə F.** Gedən gəlmir, gələn qalmır, əcəb sirr... : Fərman Kərimzadə haqqında // Azərbaycan. - 2007. - 4 mart. - S.8..

**Dövri mətbuatda**

**Ələkbərli Ə.** Vedinin yanı dağlar... : Fərman Kərimzadə - 70 // Ulduz. - 2007. - № 5. - S.45-48.

**Kazımov Q.** Təyyar Salmanoğlunun düşüncələri : [Fərman Kərimzadənin "Qarlı aşırım" romanının tədqiqi əsasında maraqlı bir tədqiqat] // Kaspi. - 2017. - 7 yanvar. - № **2**. - S. 21.

**Kəlbiyeva A.** Tarixi məqam və yaşantılar : yazıçı Fərman Kərimzadə haqqında // Mədəni Maarif. - 2011. - № 12. - S. 51-52.

**Kərimzadə Y.** Atam bizi gözünün nuruyla böyütdü [Fərman Kərimzadənin qızı Yeganə Kərimzadə ilə söhbət / yazdı: Sərvaz] // Ədəbiyyat qəzeti. - 2007. - 28 dekabr. - S. 4.

**Paşayev Q.** Deyilən söz yadigardır... // Ədəbiyyat qəzeti. - 2009. - 24 iyul. - S. 4. - Bu başlıq altında müəllifin Nigar Rəfibəyli, Hüseyn Arif, Fərman Kərimzadə haqqında çıxışları cəmlənmişdir.

**Salamoğlu T.** Qarlı aşırım - sarsıntısından doğan işıq : tənqid və ədəbiyyatşünaslıq : [Fərman Kərimzadənin "Qarlı aşırım" romanı haqqında] // Azərbaycan. - 2016. - № 4. - S. 193-202.

**Səmədov A.** Fərman Kərimzadə dünyası : Fərman Kərimzadə - 70 // Ədəbiyyat qəzeti. - 2007. - 28 dekabr. - S. 4.

**Vahid T.** Fərman Kərimzadə, şaftalı çiçəkləri və bir də "Axırıncı aşırım" : O, Ömrün aşırımlarını aşa bilməsə də, tarixin aşırımlarını aşacaq və ədəbiyyatımızda əbədi qalacaq // Mədəniyyət. - 2012. - 2 mart. - № 15. - S. 13.

**Vahid T.** "Qarlı aşırım"dan "Axırıncı aşırım"a doğru : Fərman Kərimzadə haqqında // Mədəniyyət. - 2011. - 2 mart. - № 16. - S. 13.

**Yusifli V.** Hanı Fərmanın, dağlar... : Fərman Kərimzadə - 75 // Ədəbiyyat qəzeti. - 2012. - 16 mart. - № 10. - S. 6.

### ***İnternetdə***

Kərimzadə F. Xudafərin körpüsü // kitabxana.net
Kərimzadə F. Çaldıran döyüşü // bookmate.com/books/
Yazıçı şəxsiyyət... Fərman Kərimzadə sənətkar kimi də, şəxsiyyət kimi də vaxtdan ucada dayanbr // www.kitabyurdu.org. – Şərq. – 2011. – 1 iyun. – S.11.
Bir vətənpərvər yazıçı var idi... //www.azadliq.info

# Tarixi romanlar müəllifi Fərman Kərimzadə

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Ruhiyyə Məmmədli**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**